Kəmalə Orduxan qızı Yusibova

UOT: 334.72.4012.56; JEL: D42.

Su təchizatı sektorunda xərclərin azaldılmasının ümumnəzəri- metodoloji məsələləri

Xülasə

Minilliyin Bəyannaməsinə qoşulmuş Azərbaycan hökuməti 2008-2015-ci illər üzrə Yoxsulluğun Azaldılması və Dayanıqlı İnkişaf üzrə Dövlət Proqramının (YADİDP) əsas strateji məqsədləri olaraq, su təchizatı və kanalizasiya (STK), şəhər nəqliyyatı (ŞN) və bərk tullantıların idarəçiliyi (BTİ) daxil olmaqla, əsas kommunal xidmətlərdən istifadəni təmin etmək, ölkə əhalisinin yaşayış keyfiyyətinin yaxşılaşdırılması öhdəliyini götürmüşdür. Məqalənin hazırlanmasının zərurəti də yuxarıda göstərilən səbəbdən əmələ gəlmişdir. Məqalədə su təchizatı sektorunda xərclərin azaldılmasının ümumnəzəri-metodoloji məsələlərinə münasibət bildirilir.

Açar sözlər: *kommunal sektor, su təchizatı, kanalizasiya xidmətləri, təbii inhisarlar, son-həddxərcləri*

Giriş

Kommunal xidmətlər (su, elektrik və qaz və s.) ölkənin iqtisadi və sosial inkişafında mühüm rol oynayan əsas xidmətləridir. Keyfiyyətli kommunal xidmətlər yoxsulluğun aradan qaldırılmasının effektivliyinin şərtlərindən biridir. Hökumətlər kommunal xidmətlərə universal əlçatanlığı təmin etmək məsələsində məsuliyyət daşıyırlar. Bu baxımdan, kommunal sektorda xərclərin azaldılması bütün dünyada aktual olan problemlər siyahısındadır. Tədqiqat işinin öyrənilmə zərurəti 2015-ci ildən daha da yüksəlmişdir. Beynəlxalq əlaqələrin Kral institutu tərəfindən 2015-ci ilin fevral ayı ərzində "Qaçınlar üçün işiq istilik və enerji, xərclərin azaldılması və həyat şəraitinin saxlanılması" mövzusunda aparılmış tədqiqat işinin nəticəsində də xərclərin azaldılması məqsədlərinə nail olunması nəinki qaçqın və məcburi köçkünləri maddi yardımlarla təmin edən humanitar təkilatlara, eyni zamanda bir çox hökumətlərə mənfəət təmin etmiş olar fikri təsdiq olunmuşdur" [8]. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsinin hazırlanması və həmçinin Minilliyin Bəyannaməsinə qoşulmuş ölkəmizdə Davamlı İnkişafın Məqsədləri içərisində kommunal xidmətlər sektoru üzrə öz öhdəliyinə götürdüyü məqsədlərlə birbaşa bağlıdır.

İctimai məhsul və xidmətlərə olan bazar tələbi

Yalnız şəxsi istifadə üçün nəzərdə tutulan məhsul və xidmətlər kiçik vahidlərdən ibarət olur və onları ayrı-ayrı istehlakçılar əldə edə bilər. Kimin istəyi və imkanı yoxdursa ondan faydalanmaqdan imtina edə bilər. Bu səbəbdən bu cür məhsul və xidmətlərin təqdim edildiyi bazarda təqdim edilmiş və alınmış məhsul və xidmətlərin arasında tarazlıq tələb və təklifin təsiri ilə müəyyənləşən qiymətdən asılı olacaqdır. Bu tarazlıq o zaman optimal hesab olunur ki, satıcıların və alıcıların ümumi rifahına səbəb olur. Bu yanaşmanı ictimai məhsul və xidmətlərin istehsalı və satışı üçün tətbiq etmək mümkün deyil. Çünki ictimai məhsul və xidmətlər istehsalı bölünməzdir və onun satışına "Kimin qiymətini ödəmək imkanı yoxdursa ondan faydalana bilməz" fikri doğru deyil. Potensial alıcıların ictimai məhsul və xidmətlərə olan tələbi hər zaman mövcuddur və istifadə üçün haqq ödəmək imkanlarından

©Kəmalə Orduxan qızı Yusibova İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlarElmi-Tədqiqat İnstitutu, doktorant
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

asılı olmayaraq, onların istifadəsini dayandıra bilməzlər. Azalan marjinal faydalılıq qanununa əsasən, hər məhsul və xidmət vahidinin istehlakından alınan fayda özündən əvvəlkinə nisbətən daha az faydalı olur. İctimai məhsul və xidmətlərin istehlakını dayandırmaq qeyri-mümkün olduğuna görə də, onlara olan tələbi ya mövcud deyil və ya aşağı səviyyədədir. Tələbin azalmağa meyilli olması bu məhsul və xidmətlərin istehsalına çəkilən xərclərin tam ödənilməsini təmin etmir. Lakin əldə olunan ümumi ictimai fayda bu məhsul və xidmətlərə çəkilən müvafiq xərclərlə eyni səviyyədə olur və ya onları üstələyir. Bu məsələ daim dövlətin nəzarətində olur və ölkənin hər bir vətəndaşına ictimai xidmətlərin münasib qiymətə əlçatan olması üçün lazımlı tədbirləri görür [1].

Təbii inhisarın mövcudluğu sektorun tənzimlənməsi üçün əsas səbəblərdən biridir

Müəssisə göstərdiyi xidmətin və ya satdığı məhsulun bazarda heç bir əvəzedicisinə malik olmadan tək satıcısı olarsa bazarda həmin xidmətin göstərilməsi və malın satışından gəlir əldə edilməsi təbii inhisar adlanır. [1] Bu termin bazarda satıcıların sayına görə yox, tələbat və onun təmin edilməsi texnologiyası arasındakı əlaqəyə görə yaranmışdır. Əgər bir məhsula və ya bir xidmətə olan bazar tələbi ən aşağı qiymətə bir neçə deyil, yalnız bir müəssisə tərəfindən ödənilə bilərsə, həmin bazar iştirakçıların sayından asılı olmayaraq inhisar bazarı və satıcı isə inhisarçı adlanır [1]. Təbii inhisarın məhsulu və ya xidməti unikaldır. Xidməti və ya məhsulu alanların fikrincə başqa məqbul alternativ yoxdur. Onlar bu məhsulu və xidməti satıcıdan almağa məcburdur. Mükəmməl rəqabət bazarında fəaliyyət göstərən ayrı müəssisə qiymətə müdaxilə edə onu dəyişdirə bilmir, yalnız onunla razılaşa bilir. Buna səbəb onun ümümi təklifdə az miqdarda məhsulla çıxış etməsidir. Təbii inhisarçı isə qiymətə nəzarət edir çünki bu məhsul və ya xidmət üzrə bazarda təklifin böyük bir hissəsi ilə çıxış edir. Aşağıya doğru hərəkət edən tələb əyrisinin vəziyyətinə uyğun olaraq istehsalın miqdarını idarə edib təklifini dəyişməklə qiymətə müdaxilə edə bilir. Sektora daxilolmanın maneələrlə üzləşməsinin səbəbi inhisarın ortaya çıxmasıdır. Bundan əlavə, maneələr iqtisadi, texniki, hüquqi və s. ola bilər. Su təchizatı və kanalizasiya xidmətlərinə çox zaman təbii inhisarlar kimi istinad olunur. Bu təbii inhisar konsepti özündə texnoloji üstünlüyə malik bir müəssisənin ən ucuz qiymətə xidməti göstərə bilməsini ifadə edir. [7] Bu xidmətlərin göstərilməsi üçün bir neçə şirkətin fəaliyyət göstərməsi əlavə xərclərə səbəb ola bilər. Çünki bu sahələrdə istehsal texnologiyasının qurulması böyük miqdarda kapital qoyuluşu tələb edir. Buna görə də dövlət bir istehsalçı və ya təchizatçıya müstəsna icazə verir. Müstəsna icazə ilə birlikdə dövlət kommunal sektorda fəaliyyət göstərən müəssisələrin üzərində hakimiyyətindən istifadə edərək milli rifaha ziyan olacaq qərarlar qəbul etmələrinin qarşısını almaq üçün göstərilən xidmətlərin və onların qiymətlərinin tənzimlənməsini öz əlində saxlayır. İnhisarlarda sahəyə daxil olmaq üçün tətbiq edilən maneələr sırasına patent və lisenziyaları göstərmək olar. Təbii inhisarların rəqibləri olmur. Təklif olunan məhsulun və ya xidmətin növündən asılı olaraq, inhisarçı onları reklam edə bilər və ya reklamdan imtina edə bilər. Kommunal xidmətləri və məhsulları geniş şəkildə yaymağa ehtiyac olmur, çünki su, qaz, elektrik və ya telefon şəbəkəsinə ehtiyacı olmayan insanlar yox dərəcəsindədir. Bir çox ölkələrdə su, qaz, elektrik enerjisi, kabel televiziyası, telefon rabitəsi kimi təchizatı kimi kommunal xidmətlər ya dövlətin mülkiyyətində olur və ya dövlət tənzimlənməsi obyekti olur.[1] Çünki yaxın əvəzedici başqa xidmətlər mövcud deyil. Bu cür təbii inhisarlar sahədə ilk və ya böyük təchizatçının xidmətin dəyərində üstünlüyünə sahib oluğu halda meydana gəlir. Bu o sahələrdə baş verir ki, orda iri həcmdə kapital qoyuluşlarına ehtiyac olur və bu səbəbdən digər təchizatçılar sahəyə daxil olmaqda çətinliklərlə üzləşirlər. Dünya ölkələri üzrə də kommunal sektora xidmət edən əsas müəssisələrin böyük hissəsi təbii inhisarlar kimi fəaliyyət göstərir. Yerli əhalini su, qaz və elektrik enerjisi ilə bir neçə müəssisənin təchiz etməsi, kanalizasiya və mənzil istismar

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xidmətlərinin göstərilməsi əlavə vəsait israfından başqa bir şey olmazdı. Çünki bu sahələrdə xidmətin göstərilməsini təmin etmək üçün ehtiyac olan su nasos stansiyaları, su şəbəkəsi boruları, ötürücü qurğular, generatorlar, təmizləyici qurğuların tikilməsi və istismara verilməsi böyük həcmdə kapital qoyuluşu tələb edir. Təbii inhisarın mövcudluğu sektorun tənzimlənməsi üçün əsas səbəblərdən biridir. Bu səbəbdən xidmətlərin göstərilməsi üçün hökumət bir tək istehsalçıya müstəsna hüquq verir. Lakin buna baxmayaraq, su və kanalizasiya xidmətlərinin göstərilməsi, elektrik enerjisi və qaz təchizatı, nəqliyyat və mənzil istismarı xidmətlərinin göstərilməsi müqabilində verdiyi müstəsna hüququn qarşılığında xidmətlərin göstərilməsi keyfiyyəti və onların qiymətlərinin təyin edilməsi hüququnu hökumət öz üzərində saxlayır. [1]

Təbbi inhisar olan su sektorunda xərclərin azaldılmasının bəzi nəzəri-metodoloji məsələləri

Mövcud bazar tələbatında məhsul vahidinin istehsalına çəkilən xərclərin azaldılmasına nail olunması bazarda vahid istehsalçının olmasına bağlıdır. İstehsal olunan məhsulun miqyası artdıqca inhisarın rəqabətədavamlılığı artır. Bu səbəbdən kiçik miqyasda məhsul istehsalı ilə məşğul olan müəssisələrin sahəyə girişi onlar üçün uğursuz nəticələrə səbəb olacaqdır. Xalis inhisarda xərclərin azaldılması məhsulun qiymətinin azaldılması əvəzinə inhisarçı üçün mənfəətə səbəb olan nəticəyə gətirib çıxaracaqdır. [4]

Ümumi istehsalın qrafiki



Q-Ümumi istehsalın miqdarı C-Ümumi xərclər TC-ümumi istehsal xərcləri ATC-orta istehsal xərci TR-ümumi gəliri ifadə edirə

$$ATC = \frac{TC}{Q} \quad TR = QP$$

Bildiyimiz kimi, inhisarçının Q miqdar xidmət göstərilməsi və ya malların təqdim edilməsindən əldə etdiyi gəliri ümumi gəlirdən ümumi xərclərin çıxılmasına bərabərdir. R(Q)= TR(Q) – TC(Q) bu funksiyanın qiymətinin 0-a bərabər olduğu Q miqdar istehsalı maksimum hesab olunur. Buradan,

$$\frac{dR(Q)}{dQ} = \frac{dTR(Q)}{dQ} - \frac{dTC(Q)}{dQ} = 0 \quad [4]$$

Q-nun Q_E maksimum qiymətində inhisarçının son həddi gəliri son həddi xərcinə bərabər olacaqdır. Bunu aşağıdakı kimi ifadə etmək olar;

$$MR(Q_E) = MC(Q_E) \qquad [4]$$

$MR(Q)=P(Q)+Q\frac{\partial P}{\partial Q}$ (MR(Q) - istehsalçının Q miqdar istehsalında son-həddi gəliri, $\frac{\partial P}{\partial Q}$ istehsal olunmuş xidmətin miqdarının P qiymətinə görə elastikliyidir). Xalis rəqabət bazarında dP/dQ sıfra bərabər olduğunu bildiyimiz üçün son həddi gəliri bu halda qiymətə bərabər olacaqdır. İnhisar bazarında isə azalmağa meyilli olan tələb əyrisi bu düsturda dP/dQ<0 kimi ifadə olunub son həddi gəlirinin qiymətdən az olmasına səbəb olacaqdır.

$$MR(Q) = [P(Q)+Q\frac{\partial P}{\partial Q}] < P(Q) \qquad [4]$$

Tələb əyrisinin azalmağa meyilli olduğu üçün inhisarçı əlavə bir məhsul vahidini satmaq üçün qiyməti azaltmalıdır. Onda onun son həddi gəliri satışın miqdarının Q-nun n–dən n+1-

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ədək artırılması nəticəsində və qiymətin aşağı salınmasından sonrakı gəlirdən n son həddi məhsul vahidinin satışından əldə olunan gəlirin çıxılmasına bərabər olacaqdır.

$$MR_{n+1}=P_{n+1}-(P_n-P_{n+1})Q_n \qquad [4]$$

$P_n-P_{n+1}>0$ olduğu üçün $MR_{n+1}<P_{n+1}$ bərabərsizliyi ödənir. Beləliklə, inhisarçının son həddi gəliri qiymətdən aşağı olaraq formalaşır. Xalis rəqabət bazarında isə son həddi gəliri qiymətə bərabər olur. M(R)=P. Qrafikdə maştab effekti təqdim olunmuşdur. Göründüyü kimi, orta istehsal xərclərinin bütün istehsal əyrisi üzrə azaldığı müşahidə olunur. İstehsalın miqyas effekti yüksək olduğu halda uzunmüddətli dövrdə məhsulun orta qiymət əyrisi miqdar əyrisi istiqamətində azalmağa başlayacaqdır. [4]. Müəssisə satışları artırmaq məqsədilə qiyməti aşağı salmalıdır və onun son həddi gəliri xətti (MR) xalis olmayan rəqabət şəraitində onun azalan tələbindən də aşağıda yerləşir. Ümumi gəlir (TR) artan templə yüksəlir öz maksimumuna çatanadək artır və sonra azalmağa başlayır. Qrafikdən göründüyü kimi ümumi gəlirin maksimum olduğu E nöqtəsindən başlayaraq tələb xətti azalmağa doğru meyl edir. Son həddi gəliri isə 0-a bərabərdir. Deməli istehsalçı gəlirin və tələbin E nöqtəsinədək aldığı qiymətlərin kombinasiyasına münasib məhsul və xidməti istehsal edərsə gəlir əldə edəcəkdir. E nöqtəsi onun son həddi gəlirinin və son həddi tələbinin bərabər olduğu nöqtədir [1].

Xalis rəqabət bazarı və inhisarçı bazarı arasında fərqlərdən biri də tələb funksiyalarının qrafiklərinin müxtəlif xarakterli olmasıdır. Xalis rəqabət bazarında tələb funksiyasının qrafiki düzxətli olub istehsal funksiyasına paralel yerləşirsə, inhisarçı bazarı tələbinin qrafiki isə istehsal funksiyasının qrafikinə nisbətən mənfi əyilməyə malikdir. Bu isə son həddi gəliri (MR) və tələb (D) əyrisi və orta gəlir (AR) funksiyalarının qrafiklərinin müxtəlif olmasına səbəb olacaqdır. Xalis rəqabət bazarında qiymət xətti həm orta həm də son həddi gəlir xəttinə bərabər olur.(AR=MR=P) [1]. Tələb və son həddi gəlir funksiyalarının asıllığını ifadə eən qrafik sxemlə tanış olaq [1]. ATC-cəmi xərclər, AVC-orta xərclər, MR-son həddi gəliri, MC-son həddi xərcləri. Xalis rəqabət bazarı və inhisarçı bazarı arasında fərqlərdən biri də tələb funksiyalarının qrafiklərinin müxtəlif xarakterli olmasıdır. Xalis rəqabət bazarında tələb funksiyasının qrafiki düzxətli olub istehsal funksiyasına paralel yerləşirsə, inhisarçı bazarı tələbinin qrafiki isə istehsal funksiyasının qrafikinə nisbətən mənfi əyilməyə malikdir. Bu isə son həddi gəliri (MR) və tələb (D) əyrisi və orta gəlir (AR) funksiyalarının qrafiklərinin müxtəlif olmasına səbəb olacaqdır. Xalis rəqabət bazarında qiymət xətti həm orta həm də son həddi gəlir xəttinə bərabər olur.(AR=MR=P) [1]. Tələb və son həddi gəlir funksiyalarının asıllığını ifadə eən qrafik sxemlə tanış olaq [1]. ATC-cəmi xərclər, AVC-orta xərclər, MR-son həddi gəliri, MC-son həddi xərcləri. Əksinə inhisar bazarında tələb əyrisi mənfi əyilməyə malik olduğu üçün həm də orta gəlirin əyrisi kimi çıxış edir. Lakin sonn həddi gəlirinin əyrisi ondan aşağıda yerləşir. Əgər D tələbi aşağı, xərclər yüksək olarsa istehsalçı xalis inhisar şəraitində gəlir əldə etməyə bilər. Çünki P_m qiyməti Q_m miqdar istehsalda AVC orta xərcləri üstələyir, qısamüddətli dövrdə o xərcləri azaltmağa çalışaraq elə miqdar məhsul və xidmət istehsalına çatdıracaq ki, burada son həddi gəliri son həddi xərclərinə bərabər olsun. AP_m məhsul və xidmət vahidinə düşən itkilətin yerləşdiyi parçadır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az



İnhisarçı müəssisənin davranışı

Gəlir əldə etməyə can atan inhisarçı rəqabətli bazarlardakı istehsalçılar kimi gəlir əldə etməyə çalışır. O hər son vahid məhsulun realizasiyasını ümumi xərcləri artırmasından çox ümumi gəlirin artırılmasının müşahidə olunduğu vəziyətədək genişləndirəcəkdir. MR-MC>0 şərti ödənilən və gəliri maksimumlaşdıran funksional (miqdar; qiymət) cütləri ümumi gəlir və xərclərin müqayisə olunması yolu ilə müəyyən oluna bilər [4]. İnhisar təklif əyrisinə sahib deyil. Xalis rəqabət bazarında təklif əyrisi son hədd xərcləri əyrisinin bir hissəsi olmaqla, orta dəyişən xərclərin üzərində yerləşir. Təklif əyrisini gəlirin maksimumlaşdırılması qaydası ilə P=MC şərti daxilində müəyyən edirlər. İstənilən qiymət səviyyəsində xalis rəqabət bazarının satıcısı gəliri bu qiyməti son hədd xərclərinə bərabər edərək maksimumlaşdırır. Bazar qiyməti yüksəlib və aşağı düşəndə rəqabət bazarının müəssisəsi son hədd xərclərinin əyrisinin üzərində aşağı və yuxarı hərəkət etdirəcək. İnhisar bazarında ilk baxışdan elə təəssürat yaranır ki, onun son hədd xərcləri əyrisi eyni zamanda onun təklif əyrisi kimi çıxış edəcək. Bu doğru deyil. Çünki qiymət və istehsal olunan məhsulun həcmi arasındakı əlaqə müxtəlif ola bilər. Qiymət və istehsal olunan məhsulun həcmi tələb əyrisindən bu isə öz növbəsində son hədd gəlirinin əyrisindən asılı olur. Xalis rəqabət bazarındakı kimi inhisarçı da son hədd xərclərini son hədd gəliri ilə bərabərləşdirir, lakin inhisarçı üçün son hədd gəliri qiymətdən aşağı olmalıdır. İnhisarçı son hədd xərclərinin qiymətə bərabər etmədiyi üçün müxtəlif təklif şərtləri gəlirin artırılması üçün müxtəlif qiymət və istehsal həcmlərinə nail olunması təmin olunacaqdır. Beləliklə rəqabət bazarındakı satıcıdan fərqli olaraq inhisarçı aşağıdakı seçimlərə riayət edəcəkdir:

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- Ən yüksək olmayan qiymət - Ümumi gəlir və ümumi xərclər satılmış xidmətlərin miqdarından asılı olduğu üçün inhisarçı ən yüksək qiymət deyil ən maksimum gəlir gətirən qiyməti seçəcək.
- Gəlir ümumidir, vahidə düşən gəlir önəmli deyil. İnhisarçı ümumi gəliri artırmağa çalışır vahidə düşən gəliri deyil. [4]

Yuxarıda deyilənlərdən belə bir nəticəyə gələ bilərik ki, təbii inhisarlar dövlətin qarşılarında qoyduğu şərtlərə uyğun olaraq aşağı qiymət səviyyəsinə əməl etməklə bərabər, həm də öz mənafeləri üçün gəlirlərini artırmağa çalışırlar. Bunun üçün onların istehsal etdiyi məhsulların və göstərdiyi xidmətlərin miqdarını qiyməti stabil saxlamaq şərtilə, həmin məhsul və xidmətlərin son vahidinin istehsalına çəkilən son həddxərclərinin həmin məhsulların və xidmətlərin satışından əldə edəcəyi son həddgəlirlərini üstələmədiyi vəziyyətədək artırmağa davam etməlidir. Belə bir şəraitdə təbii inhisarçının iqtisadi siyasətin tərkib hissəsi olaraq istehsalı artırma daha çox müştərilərin tələbatını ödəməyə bununla maaştab effektinə nail olması strategiyasını seçməsi məqsədəuyğundur [4]. Beynəlxalq təcrübədə təbii inhisarlar başqa sözlə, kommunal sektorun tənzimlənməsi əsasən qiymətqoymanın və yığım səviyyəsinin tənzimlənməsinə yönələn addımları özündə birləşdirən nəzəriyyələrdən ibarətdir. Yığım səviyyəsinin kapital qoyuluşuna nəzərən müəyyən olunan normasının sabit qalması tövsiyə olunur. Həmin norma azalan zaman tənzimləyici qiymətin qalxmasınaicazə verir. Bu nümunəyə ABŞ-da rast gəlinmişdir və bəzi inkişaf etməkdə olan ölkələrə də ötürülmüşdür. Bu zaman qiymət xidmətin dəyəri ilə kapital qoyuluşları üçün gəlir normasının cəmi kimi müəyyən olunur. Çünki xidmət şəbəkəsi artdıqca şəbəkənin özünə kapital qoyuluşlarının da artırılması və genişləndirilməsi tələb olunacaqdır. Qiymətqoymanın tənzimlənməsi gəlir gəyirən qiymət sərhəddinin tənzimlənməsinə əsaslanır.

Nəticə

Kommunal su sektorunun xərclərinin azaldılması məsələsi təbii inhisarların tənzimlənməsi məsələsi ilə eynilik təşkil edir. Bu səbəbdən sektorun tənzimlənməsində üstünlük verilən qaydalara xərclərin azaldılması zamanı da diqqət edilməlidir. İctimai faydalı məhsul və xidmətlərin istehsalını və istehlakını dayandırmaq mümkün deyil. İstehlakını asanlaşdırmaq və əlçatan etmək dövlətin qarşısında duran əsas vəzifələrdən biridir və bu səbəbdən sektorun tənzimlənməsində dövlətin rolu mühümdür. Dövlət təchizatçılara xidmətlərin göstərilməsi tariflərinin təyin olunmasını əlində saxlamaqla onlara xidmətlərin göstərilməsi üçün müstəsna hüquq verir və eyni zamanda xidmətlərin keyfiyyətinə nəzarət edir.Kommunal sektorun fəaliyyəti ictimai rifahla sıx bağlı məsələ olduğu üçün onların tənzimlənməsi məsələsində cəmiyyətin rifahını birinci dərəcəli şərt olaraq nəzərə almaq lazımdır. Xərclərin azaldılması sektorun fəaliyyətinin səmərəliliyinin artırılması üçün vacibdir. Xərclərin azaldılması cəmiyyətin mənafeyinə zidd olaraq aparılmamalı, suyun keyfiyyət standartları və dövlət tərəfindən stabil olaraq təyin olunmuş qiymətlər davam etdirilməlidir.

Ədəbiyyat

1. Economics prıncıples, problems, and polıcıes thırteenth edıtıon Campbell R. Mcconnell (Chapter 24 Definition of price and output: pure monopoly 531-568) 1999
2. Managerial Economics economic tools for today's decision makers 17th edition Paul G Keat Paul Keat Philip K Y Young Philip K Young Steve Erfle 332)
3. Comparison of Public and Private Water Utility Financial and Management Strategies (by Priscilla P. Lee Massachusetts Instıtute Of Technology) İyun 2001

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

4. Микроэкономика Гальперин В. М., Игнатьев С. М., Моргунов В. И. (В 2-х томах. Институт "Экономическая школа", Санкт-Петербург, 2004.)
5. Indirect Taxation, Public Pricing and Price Cap Regulation: A Synthesis Edilio Valentini September 10, 2014
6. Regulation of Natural Monopolies by Paul L. Joskow April 2005
7. https://www.chathamhouse.org/Heat, Light and Power for Refugees Saving Lives, Reducing Costs Glada Lahn and Owen Grafham Foreword by Kofi Annan November 2015
8. Public utility pricing and finance Frank A. Wolak From The New Palgrave Dictionary of Economics, Second Edition, 2008 Edited by Steven N. Durlauf and Lawrence E. Blume

Кямала Ордухан гызы Юсибова
Общезерно-методологические вопросы снижения затрат в секторе водоснабжения
Резюме

Присоединяющаяся к декларации тысячелетия правительство Азербайджана взяло на себя обязательство улучшить качество жизни своего народа путем предоставления доступа к основным коммунальным услугам, включая водоснабжение и канализацию (ВСК), городской транспорт (ГТ) и управление твердыми отходами (УТО) в государственной программе по сокращению бедности и устойчивому развитию в 2008-2015 годах. Необходимость в статье возникла из вышеуказанной причины. В статье рассматриваются наиболее распространенные методологические вопросы снижения затрат в секторе водоснабжения.

Ключевые слова: *коммунальное хозяйство, водоснабжение, канализационные услуги, естественные монополии, пределные расходы*

Kamala Ordukhan Yusibova
General-methodological issues of cost reduction in the water supply sector
Summary

Following the Millennium Declaration, the Government of Azerbaijan has the main strategic objectives of the State Program on Poverty Reduction and Sustainable Development for 2008-2015 has committed to improving the quality of life of its people by providing access to basic public services, including water supply and sanitation (WCC), urban transport (GT) and solid waste management (UW). The need for an article arose from the above reason. The article discusses the most common methodological issues of reducing costs in the water supply sector.

Keywords: *utilities, water supply, sewer services, natural monopolies, the limit expenses*

Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov
Daxil olub: 09.10.2020.
Çapa qəbul olunub: 15.10.2020.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az